

Heydər Əliyev İli 2023



Arzulardakı Azərbaycan

Böyük tarixləri böyük şəxsiyyətlər yaradır. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, tarixin bütün dönəmlərində zamanın axarına təsir göstərən, çətin sınaq anlarında insanları ardınca aparan, hədəflərə doğru yolumuza bələdçilik edən, düzgün istiqamət verən böyük şəxsiyyətləri həmişə olub. Əgər əsrlər əvvəl bu missiyanı görkəmli sərkərdələr, dövlət qurucuları yerinə yetirirdilərsə, XIX əsrin ortalarından belə bir missiya tanınmış maarifçilərimizin üzərinə düşüb. Onların ideyalarından XX əsrin ikinci onilliyində müsəlman Şərqinin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Cümhuriyyət qurucuları olan şəxsiyyətlərimiz bizim üçün çox mühüm bir dəyər yaratdılar.

Ümummilli Lider Heydər Əliyevin şəxsiyyət kimi böyüklüyü və mənəvi gücü ondadır ki, Azərbaycan xalqının əsrlər boyu həm dövlət quruculuğu, həm maarifçilik, həm ictimai şüurun inkişafı, həm cəmiyyətin sosial təkamülü yönündə əldə etdiyi bütün nailiyyətlər onun həyat və fəaliyyətində bir araya gəlir. Heydər Əliyevin Azərbaycan xalqının inkişafı və dünya xalqları arasında öz layiqli yerini tutması üçün gördüyü iş, apardığı məqsədyönlü fəaliyyət möhkəm təməllərə əsaslanırdı. Atılan addımların yönü, istiqaməti bəlli idi və bu addımların dayanıqlığı, ardıcıllığı təmin olunurdu. Heydər Əliyev gücünü xalqın mənəvi enerjisindən, dəstəyindən, tarixin ruhundan alırdı və ona görə də Azərbaycan xalqını qarşıdakı zirvələrə yetirməyə, ali məqsədlərə çatdırmağa müvəffəq olurdu.

Keçmişdən gələcəyə

Əvvəlki nəsillərin yaratdıqlarına istinadən daha yaxşısını yaratmaq, uzun illər ərzində formalaşmış təcrübəni yeni meyillərlə, fərqli yanaşmalarla inkişaf etdirmək, bir qədər də konkret ifadə etsək, onun yenisini ortaya qoymaq dialektikanın əsas qanunlarındandır. Bununla belə, qeyd etdiklərimiz keçmişdə bir zamanlar yaşanmışları inkar etmək anlamına da gəlməməlidir. Heydər Əliyev həmişə keçmişə faydalı ənənələr, təcrübə qaynağı kimi baxmış, onun işığı ilə gələcəyin istiqamətlərini daha aydın müəyyənləşdirmişdir.

Ulu Öndər Heydər Əliyev müxtəlif zamanlarda, tarixi şəraitlərdə, fərqli reallıqların diktəsi mühitində yaşadığı zəngin ömründə daim Azərbaycan üçün çalışmışdı. Azərbaycanın inkişafı, xalqımızın mənəvi təkamülü üçün ən kiçik bir fürsətdən də faydalanmağa can atmışdı və buna nail olmuşdu.

Xalqların milli dövlətçilik tarixində hər dövrün öz əhəmiyyəti var. Bununla belə, elə dövrlər olur ki, həmin mərhələlər tarix üçün xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyevin doğulub böyüdüyü və şəxsiyyət kimi yetişdiyi illərin də Azərbaycan tarixində özünəməxsus yeri var. Zaman o zaman idi ki, Cümhuriyyət 23 aylıq işıqlı ömründən sonra yenicə süquta uğramış və xalqın aydın şəxsiyyətlərinə qarşı amansız repressiya dalğası başlamışdı. Qırmızı terror Azərbaycan xalqının təhsilin, elmin hələ zəif inkişaf etdiyi o dövrdə min bir əziyyət bahasına yetirdiyi, hər biri on minlərlə insanın inkişafına yol açan savadlı, nurlu şəxsiyyətlərimizi bir-bir sıradan çıxarırdı. Bununla bolşevizm milli düşüncəni məğlub etməyə çalışırdı. Onlara elə gəlirdi ki, milli düşüncənin daşıyıcısı olan insanları sıradan çıxardıqca bu düşüncənin özü də ortadan qalxacaq. Ondan sonra xalqı istədikləri məcraya yönəldə, öz kimliyindən uzaqlaşdıra biləcəklər. Amma fərqində deyildilər ki, Azərbaycan ailələrində gənc nəslin soy-kökümüzə, milli ruhumuza bağlı minlərlə təmsilçiləri böyüyür.

Heydər Əliyev də onlardan biri idi. O, ötən əsrin 20-30-cu illərində Azərbaycanın tarixi inkişaf mərkəzlərindən olan Naxçıvanda böyümüşdü. Dünya haqqında təsəvvürləri, həyata baxışı həmin tələtümlü zamanlarda formalaşmışdı. Onda hər bir sovet gəncinin tapına biləcəyi yeganə ideologiya kommunist ideologiyası idi. Heydər Əliyev də bu ideyaya qəlbən bağlı idi, milyonlarla sovet gənci kimi kommunizmin qurulacağına, mövcud ideologiyanın dünyaya xoşbəxtlik bəxş edəcəyinə inanırdı. Eyni zamanda sovet quruluşunun gənclərin inkişafı üçün yaratdığı bütün imkanlardan maksimum faydalanaraq özünü inkişaf etdirir, mükəmməl bir şəxsiyyət kimi formalaşırdı. Bununla belə, Ulu Öndər xalqımızın milli-mənəvi dəyərlərinə ruhən bağlı idi. Tariximizə, soy-kökümüzə məhəbbət, xüsusi xoş münasibət, Azərbaycan xalqının bəşər mədəniyyətinə bəxş etdiyi mənəvi sərvətə dərindən bələdlik bu böyük dövlət adamının ruhuna hopmuşdu. Heydər Əliyev ümumbəşəri dəyərlərlə yaşayan, bu dəyərlərin dünyamızda özünə yer tutması üçün bütün varlığı ilə çalışan siyasi lider idi. Eyni zamanda bir o qədər də milli düşüncənin daşıyıcısı kimi nümunə yaradırdı, bu düşüncənin yayılmasına, nəsillərdən-nəsillərə ötürülməsinə, milli kimliyimizin əbədi olaraq var olmasına xidmət göstərirdi.

Milli maraqlara xidmət

Ulu Öndərin ömürlüyünü vərəqləyəndə onun ən çətin şərtlər altında da Azərbaycan xalqının maraqlarına xidmət etdiyinə, milli şüurun, azərbaycançılıq ruhunun yayılması üçün ən kiçik imkanları da necə məharətlə dəyərləndirdiyinə heyrətlənməyə bilmirsən. Heydər Əliyev o dövrlərin ən ağır, zəhm doğuran təşkilatlarından biri kimi tanınmış xüsusi xidmət orqanlarında sıravi bir əməkdaş kimi işə başlayıb vəzifə pillələrində ilk addımlarını atanda bu sistemdə azərbaycanlı kadrların sayı çox az idi. Təşkilat daxilindəki səlahiyyətləri gücləndikcə o, bu vəziyyəti dəyişməyə başladı. Qısa müddət ərzində xüsusi xidmət orqanlarında milli əməkdaşların sırası genişləndi, burada milli dövlətçilik təfəkkürünə malik kadrlar yetişdi.

Ulu Öndərin 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlişi ilə bu proses daha geniş miqyas aldı və ümumən, bütün dövlət aparatını əhatə etməyə başladı. Etiraf edək ki, Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişinə qədər azərbaycanlı kadrların respublikaya rəhbərliyi daha çox simvolik mahiyyət daşıyırdı. Demək olar ki, bütün qərarlar mərkəzdə verilirdi.

Heydər Əliyevə qədər Azərbaycana rəhbərlik edən şəxslər vəziyyəti dəyişib müəyyən qərarvermə səlahiyyətlərinə malik olmaqdan ötrü təşəbbüs etməyə, bunun üçün ardıcıl əzmkarlıq göstərməyə maraqlı olmadıqları kimi, ölkədə milli dövlətçilik təfəkkürünün çiçəklənməsinin lazımi intensivliklə getməsinə də bir o qədər diqqət yetirilməmişdi. Ona görə də mərkəzi şəhərlərimizdə kosmopolit ruh hakim idi və bir çox həlledici məsələlərdə milli düşüncə artıq zəifləyib sıradan çıxırdı. Üstəlik, Azərbaycanda sosial-iqtisadi vəziyyət də ürəkaçan səviyyədə deyildi. Azərbaycan ittifaq miqyasında geridə qalmış aqrar respublika statusunda idi və bir çox inkişaf göstəricilərinə görə digər ölkələrdən geridə qalırdı.

Sovet dövlətinin çox bərbad şəkildə apardığı aqrar siyasət, bu sahədəki yanlışlar Azərbaycan kəndlisini yoxsul günə salmışdı. İnsanlar əyalətlərdə, demək olar ki, ağır şəraitdə yaşayırdılar. Cəmiyyətdə haqq-ədalət normaları da pozulmuşdu. İnsanlar sovet sisteminin elan etdiyi bərabərlik ideyalarından necə uzaq düşdüyünü, güclülərin, məqam sahiblərinin qanunları, normaları tapdayıb keçdiklərini, öz sosial icmalarını yaratdıqlarını və bu icmaya daxil olmağın sadə insanlar üçün əlçatmazlığını görürdülər. İmkanlar hər kəs üçün bərabər deyildi. Bütün bunlar isə ümidsizliyə, mənəvi böhrana yol açırdı.

Dönüş anı

Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi ilə bu vəziyyət kökündən dəyişdi. Böyük dövlət adamının rəhbərliyi ilə Azərbaycanda milli düşüncəyə meydan açıldı. Müxtəlif rəsmi, qeyri-rəsmi səviyyələrdə milli şüurun oyanışı baş verdi. Ümummilli Lider Azərbaycanı uzun illərin sosial-iqtisadi problemlərindən uzaqlaşdırmaq, ölkəni yeni inkişaf yoluna çıxarmaq üçün yubanmadan işə başladı. İmkanları səfərbər etdi. Qarşıya böyük hədəflər qoyaraq cəmiyyəti həmin hədəflərə doğru yönəltdi. Heydər Əliyev ardıcıl səylər, davamlı fəaliyyət nəticəsində, eyni zamanda şəxsi nüfuzundan istifadə edərək mərkəzdə Azərbaycanın inkişafı ilə bağlı əhatəli proqramların qəbuluna və icrasına nail oldu.

Möhtəşəm tarix yaradan liderlərin böyüklüyü həm də ondadır ki, onlar zamanın axarını gözəl duyur, gələcəyi hansı inkişaf proseslərinin yaratdığını həssaslıqla qiymətləndirməyi bacarırlar. Heydər Əliyev də ötən əsrin ortalarındakı elmi-texniki inqilabın yaratdığı möcüzələrlə gələcəyin sənayeləşmədən asılı olacağını doğru dəyərləndirir və Azərbaycanın sənaye ölkəsinə çevrilməsindən ötrü yubanmadan işlər görürdü. Ulu Öndərin gərgin zəhməti hesabına o illərdə yaradılmış zavodların, fabriklərin, infrastruktur obyektlərinin əhəmiyyətli bir qismi bu gün də müstəqil Azərbaycanın sənaye həyatına xidmət edir, ölkə iqtisadiyyatı üçün yeni dəyərlər yaradır.

Görülən işlər nəticəsində Heydər Əliyev qısa zaman ərzində Azərbaycanı geridə qalmış aqrar respublikadan inkişaf etmiş sənaye ölkəsi səviyyəsinə yüksəltdi. Bu böyük dövlət adamı təhsili dövrün tələbinə uyğun bilik və bacarıqları, mədəniyyətin üstünlüyünü cəmiyyətdə kütləvi marağa çevirdi. Bununla Azərbaycan cəmiyyətinin inkişafı istiqamətində çox mühüm nəticələrə nail oldu. Heydər Əliyev ölkədə ali və orta ixtisas təhsili müəssisələrinin sayını xeyli dərəcədə artırdı. Tətbiq etdiyi yeni qaydalarla təhsili, biliyi, gələcəyin layiqli mütəxəssisləri kimi yetişmək imkanını bütün Azərbaycan gəncliyi üçün əlçatan etdi. O dövrdə bilikdən başqa güvənc yeri olmayan minlərlə imkansız ailənin övladları kifayət qədər güzəştli şərtlərlə ali təhsil müəssisələrinə qəbul olunduqlarına, peşəkar mütəxəssislər kimi yetişərək öz layiqli həyatlarını qurduqlarına görə bu gün də Heydər Əliyevə minnətdardırlar.

Ulu Öndər təhsilin, öyrənməyin sərhədlərini genişləndirdi. Hər il minlərlə Azərbaycan gəncini ölkə üçün xüsusilə nadir və vacib ixtisaslar üzrə təhsil almaqdan ötrü keçmiş ittifaqın müxtəlif nüfuzlu ali məktəblərinə göndərdi. Bununla ölkədə insan kapitalının inkişafına çox güclü təkan verdi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində insanlarımızın həyat şəraiti yüksəldi. Vətəndaşlarımız çəkdikləri zəhmətin bəhrəsini görməyə başladılar. Yenilənən infrastrukturla, bütün ölkəboyu həyata keçirilən inkişaf layihələri ilə Azərbaycan kəndlərinin, şəhərlərinin siması dəyişdi.

Ulu Öndər cəmiyyətə ədalət gətirdi, mənəvi dəyərlərimizə, milli varlığımızın ifadəsi olan ana dilimizə, tarixi şəxsiyyətlərimizə sahib çıxdı, səsimizi-sözümüzü mövcud tarixi reallıqlar şəraitində dünyaya yetirdi. Bütün dünya, ən azı mədəniyyət incilərimizlə Azərbaycan adında bir ölkənin, xalqın varlığından xəbər tutmağa başladı. Heydər Əliyev xalqımızın enerjisinin, milli müstəqillik duyğularının təzahürünə çalışır, bizi dünyanın inkişaf etmiş xalqlarının səviyyəsinə çatdırmağa çalışırdı.

Ulu Öndər keçmiş SSRİ kimi nəhəng bir imperiyanın əsas rəhbərlərindən biri olaraq Kremldə çalışdığı illərdə də Azərbaycanın və ümumən, türk-müsəlman xalqlarının ən güclü dayağı idi.

İstiqlal memarı

Ötən əsrin 80-ci illərinin sonlarından Azərbaycan özünü göstərən milli müstəqillik duyğularının, qısa zamandan sonra ölkəmizi, xalqımızı dövlət müstəqilliyinə qovuşduracaq meyillərin bünövrəsinin Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə formalaşması tarixi reallıqdır. Ulu Öndərin misilsiz xidmətlərinin nəticəsi idi ki, Azərbaycan 1980-ci illərin sonlarına doğru bütün meyarlar üzrə öz həyatını müstəqil yaşamağa qabil olan ölkə halına gəlmişdi. Qorbaçov və əlaltılarının təzyiqi ilə Ümummilli Lider yüksək vəzifələrindən istefaya göndərildikdən cəmi bir neçə gün sonra ermənilər Azərbaycana qarşı işğal planlarını həyata keçirməyə başladılar. Separatçıların bəd əməllərinə etiraz məqsədilə milyonlarla soydaşımız meydanlara atılaraq milli haqlarımızın təmin olunmasını, Vətənimizin istiqlalını tələb etdilər.

Azərbaycan Heydər Əliyevin zamanında qurub-yaratdığı müasir infrastrukturla, zəngin sənaye gücü, xammal bazası, kadr bazası ilə böyük bir inkişaf yolunun başlanğıcında idi. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində bu imkanları düzgün yönəldən olmadı. Təsadüflər nəticəsində ölkəyə rəhbərliyi ələ keçirən naşıların təcrübəsizliyi və səhv addımları nəticəsində Azərbaycan çox ağır sınaqlarla üzləşdi. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizini itirdik. Ölkədə sosial-iqtisadi böhran, xaos, anarxiya, silahlı qarşıdurmalar dözülməz hala gəldi. Müstəqilliyimizi gözü götürməyən xarici qüvvələrin təhriki ilə ölkədə yeni münaqişə ocaqları yaratmaqdan ötrü separatizm meyilləri baş qaldırdı. Azərbaycan vətəndaş müharibəsi təhlükəsinin bir addımlığına gəlib çıxdı.

Belə bir zamanda xalqın xilaskar kimi gördüyü, ölkəni üzləşdiyi bu durumdan çıxarmaq üçün gücünə, qətiyyətinə, təcrübəsinə inanıb güvəndiyi yeganə qüdrətli lider məhz Heydər Əliyev idi. Əslində, Ümummilli Liderin hakimiyyətə gələrək müstəqil Azərbaycan dövlətinin gələcəyinə görə məsuliyyəti üzərinə götürməsi hələ ölkənin müstəqilliyi rəsmən elan olunmamışdan cəmiyyətin sosial sifarişi idi. Bir-birinin ardınca baş verən hadisələrin sürəti, gözlənilməzliklər, gələcəyə ümidini itirmiş insanların çaşqınlığı bu böyük dövlət adamının prosesləri nəzarət altına almasını, Azərbaycanı xaosdan rəvan inkişaf yoluna yönəltməsini tələb edirdi. Amma gedişat Heydər Əliyevin hakimiyyətə qayıdışını bir neçə il yubatdı və bundan ən çox əziyyət çəkən dövlətimiz və xalqımız oldu. Tam əminliklə söyləyə bilərik ki, əgər ötən əsrin 80-ci illərinin sonlarından Heydər Əliyev ölkəyə rəhbərlik etsəydi, Azərbaycanda yeni tarixi-strateji dönəm məhz Ulu Öndərin liderliyi ilə baş tutsaydı, o illərdə yaşadığımız ağır faciələrin heç biri baş verməyəcəkdi. Bunu 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıdışından sonra qısa müddət ərzində Heydər Əliyevin nail olduğu köklü dəyişikliklər bir daha təsdiqləyir.

Xilaskar

Heydər Əliyev o çətin, keşməkeşli dövrdə Azərbaycanı, sözün əsl mənasında, xilas etdi. "...Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir". 1993-cü ilin 15 iyununda sonralar milli dövlətçilik tariximizə Milli Qurtuluş Günü kimi düşən əlamətdar gündə Ulu Öndər Azərbaycan xalqının və beynəlxalq ictimaiyyətin qarşısında belə bəyan etmişdi. Böyük rəhbər Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etdi. Ölkədə nizam-intizam yaratdı, xaosa, qarşıdurmalara son qoydu. Vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. 1994-cü ildə dünyanın aparıcı şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" isə ölkəmizin yeni neft strategiyasının əsasını qoydu. Ulu Öndərin irəli sürdüyü qlobal təşəbbüslər və reallaşdırılan irimiqyaslı enerji-kommunikasiya layihələri Azərbaycanın beynəlxalq əhəmiyyətini artırdı. Ölkəmiz tədricən regionun aparıcı ölkələrindən birinə, zamanla Cənubi Qafqazın liderinə çevrildi.

Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə layihəsi hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi əsasında qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu proseslərinin möhkəm təməlini formalaşdırdı. Azərbaycanda qanunun aliliyi, ifadə azadlığı, vətəndaş cəmiyyəti quruculuğu təmin edildi. Azərbaycan yeni ictimai-iqtisadi formasiyanın tələblərindən irəli gələn dəyişikliklər prosesini uğurla həyata keçirdi. Dövlət mülkiyyətinin özəlləşdirilməsi, torpaq islahatlarının aparılması sahəsində postsovet məkanının öncüllərindən oldu. Azad bazar iqtisadiyyatı prinsipləri öz yerini tutdu, cəmiyyətimizdə sahibkarlıq ənənələri formalaşdı, orta təbəqə meydana gəlməyə başladı. Azərbaycanın beynəlxalq nüfuzu gücləndi, qlobal məkanda ölkəmiz öz layiqli yerini tutmağa başladı. Bütün bunlar Azərbaycanın dayanıqlı inkişafı üçün əlverişli şərait yaratdı və bu dayanıqlı inkişafın möhkəm bünövrəsi üzərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müstəqil dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə gətirib çıxardı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, şanlı ordumuzun gücü ilə 44 günlük Vətən müharibəsi zamanı torpaqlarımızı işğaldan azad edən, erməni vandallarının dağıdıb xaraba qoyduqları yurdlarımızda heç kimin maddi köməyinə ehtiyac olmadan, öz maliyyə imkanları hesabına yenidən abadlıq mənzərələri yaradan Azərbaycan bu gün regiondakı yeni tarixi reallıqların əsas müəllifidir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin əsas təminatçısıdır. BMT-dən sonra dünyanın ən böyük beynəlxalq qurumu olan Qoşulmama Hərəkatına rəhbərliyi ilə dünyamızın gələcəyi üçün mühüm təşəbbüslərə imza atmış nüfuzlu dövlətdir. Türk dünyasının bir araya gəldiyi əsas mərkəzlərdəndir. Şərqlə Qərbin qovuşduğu məkandır. Dünyamızın gələcəyi üçün çox mühüm qlobal təşəbbüslərə evsahibliyi edən, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə bütün dünyada mədəniyyət işığını yayan, multikulturalizm, sivilizasiyalar arasında dialoq təşəbbüslərini təbliğ edən ölkədir. Azərbaycan bu gün dünyada hər kəsin güvəndiyi və özü haqqında bu güvəni illərin sınaqları ilə qazanmış etibarlı tərəfdaşdır.

Bu günün Azərbaycanı Ulu Öndər Heydər Əliyevin arzularından yaranmış Azərbaycandır.

Əhliman ƏMİRASLANOV,
akademik, SSRİ Dövlət mükafatı laureatı,
Milli Məclisin komitə sədri